The Interview Times.

Buraxılış No.6 | Sentyabr, 2022 | Pulsuz

# Bahram Baghirzade




## Biography

*Bəhram Bağırzadə 1972-ci il sentyabrın 4-də Bakıda ziyalı ailəsində anadan olub. O, 1979–1989-cu illərdə Bakı şəhəri 189 saylı məktəbdə oxuyub. 1989-cu ildə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna qəbul olub və 1994-cü ildə həmin institutu bitirib. İxtisası teatr rejissorudur. 1991-ci ildən “Bakılı oğlanlar” ŞHK komandasının üzvüdür. 1992-ci ildə ŞHK çempionu, 1995-ci ildə ŞHK Yay Kubokunun sahibi və 2000-ci il ŞHK “Əsrin Çempionu” olmuşdur. 1992-ci ildən karikatura çəkir, karikaturaları “Kirpi” satirik jurnalında çap olunub. Naşir olaraq 114 kitabın müəllifidir (74-ü uşaq ədəbiyyatına həsr olunmaqla). Bəhram Bağırzadə 2012-ci ildə Kitab nominasiyasında “Humay” milli mükafatına, 2015-ci ildə Azərbaycanın əməkdar artisti fəxri adına layiq görülüb və 2022-ci ildə ölkə Prezidenti tərəfindən “Tərəqqi” medalı ilə təltif olunub. Ailəlidir və 2 övladı var.*

**Keyfiyyət həqiqətən sərfəlidirmi?**

Bəli, hər şeydə keyfiyyət olmalıdır. Rəhmətlik atam deyirdi ki, evə pişik də alanda qəşəngini alın və qəşəng dedikdə keyfiyyətli mənada nəzərdə tuturdu. O, həmişə bazara gedəndə köhnə pul ilə 1 rubla 4 dənə alma alardı (ata, ana, bacı və mənim üçün), heç vaxt sayı keyfiyyətdən üstün tutmayıb. Keyfiyyətə önəm verəndə həm özümüz, həm də fikirlərimiz sağlam olacaq. Məsələn, dəyəndə ki, “The Interviews Times” qəzeti sizinlə görüşmək istəyir, dərhal ağlıma keyfiyyətli qəzet, keyfiyyətli universitet gəlir. Ona görə sərfəlidir, bunu etmək lazımdır. Keyfiyyətsiz olsaydı mən razılaşmazdım və gəlməzdim sizinlə görüşə (gülür).

**“Osim Xayem”. Bunu bacara bilirsinizmi günü bugün?**

Rus dilində “Делаю жизнь” kimi tərcümə olunur, amma məcazi mənada “Наслаждаюсь жизнью”- həyatdan həzz alıram kimi istifadə olunur. Bu İsraildən götürülüb, İsraildə xanım kafedə oturarkən ona zəng vurub soruşurlar ki, neyniyirsiniz. O da cavab verir: “Osim Xayem”- həyatdan həzz alıram. Və Allaha şükürlər olsun ki, yaşadığım ölkədə, demokratik ölkədə mənim üçün şəxsən elə bir şərait yaradılıb ki, artıq 50 yaşımda mən özümə deyə bilərəm “Osim Xayem”. Mənim arxamda 30 illik iş fəaliyyətim var. Bir dəfə Hacı Zeynalabdin Tağıyevin portretini çəkiblər, hansını ki o istəmirdi çəksinlər. Sankt-Peterburq şəhərindən rəssam dedi ki, 2 saata portreti çəkəcək, Hacı müəllim isə inanmadı və onun

artıq tanınmış portreti var idi. Portreti bitirəndən sonra Hacı müəllim rəssamdan soruşub ki, nə qədər pul verməlidir rəssam qayıdıb deyir ki, 2 min qızıl pul. Hacı müəllim təəccüblənir və deyir ki, 2 saata 2 min qızıl çoxdur. Rəssam izah eləməyə başlayır ki, bu portreti çəkmək üçün 2 saat yox, 38 il 8 ay 2 həftə işləyib ki, Sankt-Peterburqdan Bakiya gəlib milyonçunu çəksin. Eynən mən də, "Osim Xayem"-ı demək üçün 1991-ci ildən bəri çalışmışam və indi rahat bu sözü deyə bilərəm.

**Necə oldu ki, Bəhram Bağırzadə birdə-birə kef əhlindən, sözün yaxşı mənasında, imam əhlinə çevrildi?**

İman məndə həmişə olub, daxili iman. O, hər bir insanda var, istəyir cahil ol, istəyir əhli-kef ol. Əgər kimsə spirtli içki içən adama kafir deyirsə, o, özü kafirdi, günaha batır. Çünki heç kimin heç kimə ixtiyarı yoxdu belə bir şey deməyə. İçən adam kafir ola bilməz, ola bilər ki, cahil olsun, ola bilsin səhv buraxsın, zəif olsun çünki bunu ata bilmir, lakin insan pis anlarında Allaha dua edirsə, ona müraciət edirsə deməli bu insanın imanı var. Bəli zəifdir bəlkə də, içki, siqaret və s. bunlar zəiflikdən gələ bilər, lakin insan buna görə kafir deyil. İnsan bu yola gəlib çatanda özü başa düşür ki, bütün bu siqaret, içki və digər şeylər, hansı ki, insana lazım deyil, onlardan imtina edir. Ruslar demişkən: "Я не жалею об этом". Mən qəti peşman deyiləm ki, onlardan uzaqlaşmışam və xoşbəxtəm ki, sağlam həyat sürürəm. Ona görə Allah Təalanın rəhmi gəldi ki, mən komadan çıxdım və mənim kardioloq həkimim mənə dedi ki, o qədər ciyərimə dərman vurmuşdular ki, mən siqaret çəkən olsaydım artıq dünyamı dəyişmişdim. Sözüm odur ki, həyatda heç nə boşu boşuna olmur. Amma bir şeyi də qeyd etmək istərdim ki, heç vaxt fanatizmə və radikallığa getmək lazım deyil. Düzgün həyat, düzgün münasibət qurmaq lazımdır, onda insan başlayır daha da çox işləməyə və vətəninə, cəmiyyətə daha da çox müsbət və faydalı dəyişikliklər gətirir.

**Ayaqqabı seçimi edərkən əsasən "qutu kimi" olmağına fikir verirsiniz. Bəs digər üst geyim seçimlərində necə, əsas kriteriyanız nədir?**

Mən Arif Bağırova oxşamışam. Rəhmətlik atam şık geyinirdi. Şəkillərə baxıram, babam 30-40-ci illərdə atam isə 70-ci illərdə şık geyinirdilər. Bahalı yox ha, düzgün, zövq ilə. Mən də onlara oxşamışam (gülür). Hətta ulu babam da qəşəng geyinib, o vaxtlar üçün qeyri-adi bir hal idi. Lətif Kərimov var idi, məşhur xalçaçı, dünya şöhrətli, və yeganə insan olub ki, dünyada ilk dəfə xalça muzeyini açıb. İlk dəfə Azərbaycanda 1967-ci ildə xalça muzeyi açılıb, indi isə həmin muzeyin davamı kimi, artıq Cənab Prezidentin göstərişi ilə xalça formasında bina tikildi. Baxmayaraq ki, Lətif müəllim yaşlı adam idi, çox super və gözəl geyinərdi. Bir dəfə jurnalistlər sual verdilər ki, kimin üçün belə geyinirsiniz. Lətif müəllim qayıdıb dedi ki, mən sizin üçün belə geyinirəm ki, gözünüz yaxşı şeylərə öyrəşsin. Mən də geyinəndə artıq özüm üçün geyinmirəm, istəyirəm ki, cavanlar baxıb bilsinlər ki, 50 yaşlı kişi necə geyinməlidir, necə qalstuk taxmaq lazımdır və s. Mən xoşlayıram Azərbaycan kişi və qadınları dəb ilə geyinəndə. Xaricilər də ölkəmizə gələndə görsünlər ki, insanlar necə geyinir, düzgün rəng seçimini edir və vizual görünüşdən artıq ilk müsbət təəssürat yaradılır. İstəyirəm ki, binalarımız da dəbli qəşəng olsunlar, ümumi cəmiyyət dəyişməyi zamanla eyni getsin.



**Allah atanıza rəhmət eləsin, ilk öncə. Atanız rəhmətə gedən gündək hər yanvar ayının 25-i ona bir palto hədiyyə edirmişsiniz. Bəs o, rəhmətə getdikdən sonra necə, yanvar ayının 25-ni necə keçirirsiniz?**

Palto və ya gödəkcə, kostyum. O dünyasını dəyişəndən sonra isə həmin günü həmişə dua edirəm atama, qəbir üstünə gedirəm, ziyarət edirəm. Və ən maraqlısı odur ki, hələ elə bir gün olmayıb ki, bu 14 il ərzində ki atam artıq dünyasını dəyişib, mən onunla danışmayım. Ürəyimdə hər gün danışıram və hansısa bir əhvalata və ya çətinliyə düşəndə sual verirəm ona. Sual verməsəm də, həmişə düşünürəm ki, atam həmin vəziyyətdə özünü necə aparardı, nə edərdi. Bu yaxında məni məhkəməyə dəvət eləmişdilər və çox maraqlıdır ki, bu il yubileyim olacaq, amma bu yaşa qədər heç vaxt komaya, xəstəxanaya düşməmişdim və ya məhkəmədə olmamışdım. Bu yaşda yeni açılışlar olur məndə (gülür). Açılış günü heykəlin təsbehini sındıran uşaqların dəvəti ilə getmişdim məhkəmədə çıxış etməyə və orada dedim ki, hər bir övladımızın başına belə bir iş gələ bilər. Onlar uşaqdırlar və onlara 3, 4 və ya 5 il iş vermək mən düşünürəm ki, düzgün deyil. Cavan savadlı uşaqlar gedib narkomanlar və terroristlər ilə birlikdə olmamalıdılar. Və həmin palto əhvalatını da orada danışdım ki, atam məni döyüb danlasaydı o məni şəxsiyyət kimi məhv edərdi. Atam deyirdi ki, eybi yox, paltodur, gedib təzəsini alaram. Və bu bir tərbiyə prosesi idi. Bu gün isə biz uşaqlara izah eləməliyik ki, biz onlara cəza verə bilərik, amma verməsək daha yaxşı olar çünki onlar artıq heç vaxt bu işi təkrar görməzlər. Bu sözümü ona gətirirəm ki, evdəkilər biləndə ki, mən məhkəməyə gedirəm çox təəccübləndilər. Lakin, mən həmin günü səhər yuxudan oyananda özüm özümdən soruşdum ki, atam mənim yerimdə olsa nə edərdi. Qabağıma atamın üzü gəldi və mənə sualı: "Sən hələ məndən bunu soruşursan?!". Atam sanki mənə dedi ki, dərhal dur və get uşaqları xilas elə. Kostyum, qalstuku geyinib getdim çıxış elədim və ən azı valideynlər rahat oldular ki, mən onların xahişini yerdə qoymadım. Gələn ayın 15i növbəti məhkəmədi, ümid edirəm ki, onlara kömək edə bildim.

**Yeri gəlmişkən, haçansa olubmu ki, kamera qarşısına keçəsiniz və etdiyiniz və ya edəcəyiniz hər hansı bir əməl üçün üzr istəyəsiniz?**

Heç vaxt. Üzr istəsəm də, mən ancaq Allah Təaladan istəyirəm və hər gecə hesab aparıram ki, bugün ərzində mən nəyi düzgün nəyi isə səhv eləmişəm. Kiminsə xətrinə dəymişəmsə də bugunədək Allahdan üzr istəyirəm. Bir xasiyyətim də var ki, birinin xətrinə dəysəm və ya səhv buraxsam, gəlib həmin insandan üzr istəyərəm.

**Bildiyim qədərilə Anar Məmmədxanovla sizin ilk tanışlığınız teatrda baş tutub. O, tamaşaçı qismində, siz isə səhnədə obrazda. Həmin günü həyatınızın dönüm nöqtəsi adlandırmaq olarmı?**

Mən Anar ilə ilk dəfə Daxili İşlər Nazirliyinin istirahət evində, ikinci dəfə isə həmin teatrda tanış olmuşam, mən orada çıxış edirdim və elə orada Anar məni, 17 yaşlı cavanı KVN komandasına dəvət edib. Mənim həyatımda çoxlu insanlar olub, hansı ki həyatda mənim üçün mühüm rol oynayıb və tramplin olublar. Mən bu insanları heç vaxt unutmaram, onlardan biri isə Anar olub. Anarın bir xasiyyəti var idi, xoşlayırdı ki, öz ətrafında istedadlı insanları yığsın. Mən Moskvada səhnədə hiss elədim ki, Allah Təala tərəfindən işarələnmiş olmuşam və mənə belə şanslar verilir. 19 yaşımdan bəri öz üzərimdə işləməyə başladım və bu gün onun nəticəsini və xeyrini görürəm.

**Parovozun davamı hələ də yadınızdadırmı?**

Şeir yadımda deyil, amma bir şeyi dəqiq deyə bilərəm ki, həyatda heç nə təsadüfən olmur. Kimi parodiya, lağa qoymuşamsa, hamısı həyatda başıma gəlib. Hətta o parovoz şeirindən sonra mən təqribən 20 ildir ki, əziyyət çəkirəm, indiyənə kimi səsim açılmır. Mənim boğazım parovozun trubasına çevrilib (gülür). Bir dəfə Zaur müəllimin oğluna mən qayıdıb soruşanda ki, sən kimsən, mənə dedi ki: “Parovozun oğlu!” (gülür). Deməli atası bizim zarafatımızı bəyənib və müzakirə olunub.

**Millimiz Fransaya 10-0 məğlub olduqdan sonra mərhum Prezident, Ulu Öndər Heydər Əliyev baş məşqçiyə zəng edərək soruşur ki, bəs Fransaya yollanarkən özünüzlə qapıçı aparmamışdınız? Azərbaycan futbolunun bugünü üçün bəs nə deyə bilərsiniz?**

O vaxtı Ulu öndər zəng eləmişdi, çünki futbol var idi, indi futbol yoxdur. İndiki vəziyyət budur (gülür). Yoxdur və olmayan şeydən danışmaq mümkün deyil. Futbolçularımız var, lakin futbol yoxdur. Qurban Qurbanova böyük hörmətim var, çünki çalışan, mərd, müdrik və vətəni sevən insandır. Mən onun əl işinə baxıram, onun əl işini qiymətləndirirəm.

**Sizin bir sözünüz var ki, hər bir normal Bakıda anadan olan bir uşağın həyatında “Malena”-sı olur, yəniki Monika Belluççi. Sizin bəs “Malena”-nız kim olub uşaqlığınızda?**

Bəli, sırf Malena, Monika Belluççi yox. O, o qadındır ki, hansını ki, sən uşaq vaxtında, 8, 9 və ya 10 yaşında bəyənirsən. Hər oğlanın öz Malenası olub və o filmə baxanda hər biri öz Malenasını xatırlayır, həmin velosipedi, həmin Kubinkanı, həmin Bakıxanov və Səməd Vurğun küçəsini, Xarici Dillər Universitetini. 80-ci illərdə mən velosiped ilə həmin yolları gedirdim.

**Çingiz Abdullayev deyir ki: Həyatın xoşbəxt olmasını istəyirsənsə səndə olmalıdır: Kitayskiy aşpaz, Yaponskiy arvad, Amerikanskiy maaş və Anqliskiy ev. Sizdə bəs bu ardıcıllıq necədi?**

Mənə elə gəlir ki, əgər sənin həyat yoldaşın azərbaycanlıdırsa hamısı səndə olacaq: Dünyada ən gözəl aşpazın, ocağı olan evin, ən əsas odur ki, sən düzgün, güclü azərbaycanlı həyat yoldaşı seçəsən. Mən həmişə demişəm ki, kişinin hər bir qələbəsinin arxasında güclü qadın olur. Mənim də arxamda həmişə güclü qadınlar olub. Birinci mənim anam kim ki, məni dünyaya gətirib, böyüdüb, boya-başa çatdırıb. İkinci, mənim bacım olub və mənə cavan vaxtımda həmişə nəzarət edib. Və mənim həyat yoldaşım kim ki, gücünə mən heyran qalıram. Mən onunla ailə qurmaq istəyəndə mənim heçnəyim yox idi, nə evim, nə işim və s. sadəcə adım var idi. Mən elə bilirdim ki, həyatımda dörd qadın var, amma 5-ci Mehriban xanım Əliyevadır, çünki mən o dünyadan, Allahın izni və əmri ilə oyananda həkimlər dedilər ki, bu bir möcüzədir. Mən komada olanda məni bir cür, ailə üzvlərimi isə başqa cür dəstəkləyib. Hətta mən komadan təzə çıxanda Mehriban xanım mənə zəng edib təsəlli verirdi. Deyirdi ki, tez durub sağalım, qarşıda böyük layihələr var və mən orada iştirak etməliyəm. Ondan sonra hər dəfə özümü pis hiss edəndə dərhal bu sözləri yada salıram, başa düşürəm ki, bu işlər mənə həvalə olunub və mən onları etməliyəm. Parovozun davamı gəlir (gülür).

**Azərbaycanın ilk futbol jurnalistlərindən və şərhçilərindən biri, Elnur Əşrəfoğlu. Nə deyə bilərsiniz onun haqqında?**

Allah rəhmət eləsin! Mən onu çox istəyirdim, indi də istəyirəm. Halbuki, müsəlmanlarda belə bir cümlə var “indi istəməyim”, lakin, mən indi də istəyirəm. Elnur müəllimin övladları ilə tez-tez ünsiyyətdə oluram və onlar həmişə bilsinlər ki, onların əmisi həmişə onların yanındadır.

**Çikkuş, şprot, zavod çörəyi yoxsa çay, ləbləbi?**

İftar. İftar süfrəsi (gülür).

**Bəhram Bağırzadə. Artıq bu il 50 yaşınızı qeyd edəcəksiniz Sentyabr ayında. Bir ata olaraq, bir Bakılı olaraq, bir vətəndaş olaraq, ən önəmlisi həyat təcrübəsi görmüş, cavanlığında daş daşımış, fəhlə işləmiş, indi isə ölkənin ən tanınmış, ziyalı şəxsiyyətlərindən birinə çevrilmiş bir Bəhram Bağırzadə kimi nə deyə bilərsiniz? Ümumiyyətlə.**

İnşaAllah! Cavanlara deyə bilərəm ki, heç vaxt heç nədən qorxmasınlar. Əgər kimsə bu gün fəhlə işləyirsə sabah nazir də ola bilər. Mənim üçün önəmli insanlar olub, Ulu öndər, Bakımızın meri Ləmbəranksiy və digərləri. Onların hamısı nədənsə başlayıb və ona görə əllərinizi aşağı salmayın, və çalışın. Hamısı kənddən Bakıya gəlib çalışıblar. Hər gün cavanlara deyirəm ki, yanınızda dəftər olsun və gündə ən azı 10 İngilis sözü öyrənin, boşu boşuna oturmayın.

**Çıxışlarınızın birində deyirsiniz ki, əgər bir nəfərlə görüşünüz varsa, maksimum dərəcədə həmin görüşə hazırlıqlı gedirsiniz ki, həmin şəxsin vaxtını çox almayasınız, çünki vaxt qızıldan dəyərlidir. Bəs mən necə, çox vaxtınızı almadım ki?**

Bəli, tamamilə razıyam. Əgər Siz bu gün hazırlaşmamış gəlsəydiniz, mən tez çıxıb gedərdim. Amma, siz hazırlıqlı gəldiniz, vaxt ayırıb araşdırma etmisiniz. Buna görə Sizə böyük hörmətim var və ləzzət aldım müsahibədən. Biz vaxt itirmirik, biz indi əksinə qazanırıq.






*İdeya müəllifi: El Presidente*
*Dizayner: Nathan Kamanga*
*Redaktor: Fidan Namazova*
*Copywriter: Fərida Eyvazova*
*Vergi məsləhətçisi: Suğra Əsgərova*
*PR komandası: Alejandra Garcia Duran*








# TOP UNIVERSITETLƏRƏ HAZIRLIQ MƏRKƏZI "STAR COLLEGES"

*Port Baku filialı - Üzeyir Hacıbəyov 57*
*(Port Baku Residence ilə üzbəüz)*
*+994 50 201 46 67*
*+994 12 526 24 36/46*

*Statistika filialı - Məhəmməd Naxçıvani 1*
*(Statistika dairəsi, KFC-nin 2-ci mərtəbəsi)*
*+994 50 201 78 44*

*office@star.edu.az*
*www.star.edu.az*

"STAR Colleges" komandası olaraq missiyamız gənclərə arzuladıqları parlaq gələcəyi, bunun üçün də ilk növbədə onlara keyfiyyətli təhsili bəxş etməkdir. Gənclərimizin ADA və dünyanın top universitetlərində təhsil alması üçün lazım olan bütün keyfiyyətlərə sahibik.
"STAR Colleges" hal-hazırda iki filial ilə fəaliyyət göstərir. Mərkəzlərimizdə dərs, imtahan, praktika və danışıq otaqları, kitabxana, kino zal və bufet mövcuddur.

ADA Universiteti tələbələri üçün xüsusi Foundation proqramımız mövcuddur.
İngilis dili ilə bağlı çətinliyi olan tələbələr bizə müraciət edərək öz ingilis dili, xüsusilə də akademik yazı bacarıqlarını inkişaf etdirə və üst səviyyəyə qaldıra bilərlər. Bundan əlavə, hal-hazırda ADA Universiteti daxilində mövcud olan Kompüter Mühəndisliyi, Kompüter Elmləri, İnformasiya Texnologiyaları, Riyaziyyat, Elektrik və Elektronika Mühəndisliyi ixtisaslarında keçirilən "Calculus" dərsləri tələbələrə çətin gələ bilir. Bunun üçün "STAR Colleges" komandası olaraq ADA Universiteti tələbələrinə xüsusi "Calculus" proqramını təklif edirik.

Ən əsası isə siz əmin ola bilərsiniz ki, övladınızın gündəlik təhsil qayğıları güvənli əllərdədir.



Mənim adım Ziyara Qasımzadədir. ADA Universitetinin Biznesin İdarə Olunması fakültəsində təhsil alıram. "STAR Colleges" komandasının proqramı ilə bir neçə il öncə SAT və IELTS hazırlıq kurslarına başladım. Bunun nəticəsində imtahanlardan yüksək nəticə əldə edərək arzuladığım xarici bir sıra reytinqli universitetlərə və o cümlədən, ADA Universitetinə qəbul imkanı qazandım. Mənim seçimim isə ADA Universiteti oldu. Universitetdə dərslərin ingilis dilində olması ilə yanaşı kampusda əla şəraitin olması çox ürəkaçandır. Lakin əksər ixtisasların baza fənni üzrə olan "Calculus" dərsindən problemlərlə üzləşdim. Bu cür problemlə üzləşən tələbələrə tövsiyəm "STAR Colleges"-in "Pre-University" proqramlarına qoşulmalarıdır. Bunun nəticəsində siz yeni tədris ilinə problemsiz və daha rahat başlayacaqsınız. Bütün bu proseslərdə mənə kömək olub, yol göstərdiyi üçün başda Hüseyn müəllim olmaqla bütün "STAR Colleges" komandasına təşəkkür edirəm.